O‘ZBEKISTON RESPUBLIKASI TA’LIM VA ILM-FAN VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI



“O‘ZBEK TILINING GLOBAL MAQOMI VA NUFUZINI OSHIRISH ISTIQBOLLARI”

MAVZUSIDAGI XALQARO ILMIY-AMALIY KONFERENSIYA MATERIALLARI







2026-yil
16-oktabr

QRAMMATİK METAFORUN TÜRK DİLLƏRİNDƏ REALLAŞMASI (ÖZBƏK DİLİNİN MATERİALLARI ƏSASINDA)
REALIZATION OF GRAMMATICAL METAPHOR IN TURKIC LANGUAGES (BASED ON UZBEK LANGUAGE MATERIALS)

DOI: 10.52773/tsuull.conf.2026.10.16/GOIL4364

Həsənzadə Səmra Namiq qızı
Bakı Dövlət Universitetinin doktorantı
Orcid: https://orcid.org/0009-0001-2698-6352
E-mail: smrhesenzade1999@gmail.com

Annotation. *The article examines M.A.K.Halliday's theory of grammatical metaphor on the basis of Turkic languages, specifically Uzbek data. The theory was developed on English and later applied to Chinese, whereas agglutinative languages have remained almost unexplored in this respect. The study draws on the three typological parameters proposed by Y.Yang: the order of grammatical constituents, the degree of grammatical specificity, and the position of realizations on the rank scale. It is established that in Uzbek a dependent clause formed with a participle or a converb is not yet regarded as metaphorical; metaphor begins when a process is turned into a thing. In ideational metaphor, the congruent and metaphorical variants retain the same word order, and the difference is signalled by clearly bounded suffixes. A nominalized process retains verbal government, and an event can be compressed into a single word without losing the meanings of negation, tense, person, and voice. In interpersonal metaphor, the meanings of modality, evidentiality, and politeness are expressed through suffixes, modal words, and projecting clauses alike. Examples are given in comparison with English. The results show that agglutination* reduces both the formal distance of metaphor and the loss of meaning.

Keywords: *grammatical metaphor, nominalization, agglutination, Uzbek language, Systemic Functional Linguistics, congruent realization, rank scale.*

Giriş. Məlumdur ki, "qrammatik metafor" termini dilçiliyə M.A.K.Hallideyın 1985-ci ildə nəşr olunan "Funksional qrammatikaya giriş" kitabının son fəsli ilə daxil olub. Və o da məlumdur ki, müəllif əsərdə bir mənanın dildə bir neçə qrammatik yolla verildiyini göstərərək, bunlardan birini "konqruent" (təbii, ilkin), digərlərini isə "metaforik" adlandırmışdı. M.Taverniers

“Qrammatik metafor və leksik metafor: Semantik variasiyaya dair müxtəlif yanaşmalar” adlı məqaləsində sözügedən əsərin həmin fəsildən bəhs edərkən yazır ki, “müxtəlif tipli ingilis dilindəki konstruksiyalar bu fəsildə “qrammatik metafor” nümunələri kimi bir yerə toplanılıb" [Taverniers, 2006: 321]. Sitatda ingilis dili deyilməsi təsadüfi deyil. Ən azından ona görə ki, nəzəriyyənin bütün kateqoriyaları (nominalizasiya, “prosesə çevrilmiş bağlayıcı”, “I think” tipli modal cümlələr və s.) ingilis dilinin qrammatikası üzərində işlənib.

Sonradan M.Hallidey və K.Matthissenin həmmüəllifliyi ilə nəşr olunan “Təcrübəni məna vasitəsilə şərh etmə” kitabında ingilis dili çin dili ilə müqayisə edilir. Müəlliflər müşahidələri nəticəsində belə bir fikrə gəlirlər ki, “çin dilinə ingilis dilinin mövqeyindən baxanda görünür ki, onun leksikoqrammatikasında bütövlükdə lazımsız spesifiklikdən qaçmaq meyli var” [Halliday, Matthiessen, 1999: 300]. Bu müqayisəni qrammatik metaforu çin dilinin materialları əsasında tədqiqata cəlb edən Y.Yanq davam etdirərək iki dil arasındakı qrammatik metafor fərqlərini birbaşa tipologiya ilə əlaqələndirdi: “Semantika və leksikoqrammatika arasındakı uyğunluğun yenidən qurulması nəticəsində meydana gələn bir hadisə kimi qrammatik metafor nəzəri baxımdan bütün insan dillərində mövcuddur. Digər tərəfdən, semantik və leksikoqrammatik sistemlərin dillərarası fərqləri qrammatik metaforun müxtəlif dillərdə fərqli xüsusiyyətlərə malik olmasını şərtləndirir” [Yang, 2008: 451]. Bununla belə, müəllif qrammatik metafor ilə bağlı əvvəlki tədqiqatların əsasən “yalnız bir dilin, xüsusilə də ingilis dilinin öyrənilməsi ilə məhdudlaşdığını” göstərir [Yang, 2008: 451].

Göründüyü kimi, nəzəriyyə indiyədək analitik meyilli flektiv dil olan ingilis dili və amorf quruluşlu çin dilinin materialları əsasında tədqiqata cəlb olunub. Aqqlütinativ dillər, o cümlədən türk dilləri, bu sxemdən kənarda qalıb. Bununla belə, türk dili üzrə tapılan az sayılı tədqiqatlardan biri H.Çakır və Ö.Cəngizin məktəb dərslərində nominalizasiyaya həsr olunmuş “Türk siniflərində qrammatik metafor” (2016) başlıqlı məqaləsidir ki, o da struktur təsvir deyil, pedaqoji-statistik təhlildir. Məqalə müəllifləri özləri də etiraf edirlər ki, “ingilis dili üzrə çoxsaylı tədqiqatlardan fərqli olaraq, qrammatik metaforun başqa dillərdə öyrənilməsinə nadir hallarda rast gəlinir” [Çakır, Cengiz, 2016: 120].

Bizim məqsədimiz qrammatik metaforun aqqlütinativ dil tipində hansı struktur formalarda reallaşdığını türk dillərindən biri olan özbək dili materialı əsasında göstərməkdir.

Əsas hissə. Məlum olduğu kimi, sistemli-funksional dilçilikdə dilin məzmun planı semantika və leksikoqrammatika olmaqla iki qata ayrılır. Semantik

vahidlərin qrammatik vahidlərdə konqruent əks olunması belədir: hadisələr ardıcıllığı (sequence) mürəkkəb cümlə ilə, tək hadisə (figure) sadə cümlə ilə, element (proses, iştirakçı, keyfiyyət, şərait) isə söz birləşməsi və ya söz ilə verilir. M.Hallidey və K.Matthissenə görə, “bu resurslar reallaşmanın əlavə imkanları hesabına genişlənə bilər. Məsələn, ardıcıllıqlar alternativ olaraq sadə cümlə ilə, hətta söz birləşməsi ilə də reallaşa bilər. Biz buna qrammatik metafor deyirik” [Halliday, Matthiessen, 1999: 227]. Burada “metafor” sözü ənənəvi mənada işlənmir. Belə ki, leksik metaforda bir sözün mənası dəyişirsə, qrammatik metaforda isə məna kateqoriyası ilə qrammatik sinif arasında uyğunluq pozulur. C.Vebster qrammatik metaforu daha qısa, “sadəcə söz mənalarının deyil, kateqoriya mənalarının birləşməsidir” şəklində formulə edir [Webster, 2009: 3]. M.Hallidey və K.Matthissen bu birləşməni “junction” (birləşmə) termini ilə adlandırırlar. Onların izahına görə, *development* sözü prosesdir, amma qrammatika onu əşya kimi formalaşdırıb. Və bu tip elementlər “iki semantik kateqoriyanın birləşməsidir: shakiness “keyfiyyət-əşya”, development “proses-əşya”dır" [Halliday, Matthiessen, 1999: 243].

Sistemli-funksional dilçilikdə qrammatik metaforun iki əsas növü ayırd edilir. Belə ki, M.Hallidey reallığı alternativ yollarla təqdim edən təsəvvür edilən metaforları və modal mənaları ifadə etmək və ya əmr mübadiləsi üçün alternativ imkanlar verən şəxsiyyətarası metaforu bir-birindən fərqləndirir. Bu iki növ rank şkalası üzrə əks istiqamətlərdə hərəkət edir. “Funksional qrammatikaya giriş”in üçüncü nəşrində göstərilir ki, “Təsəvvür edilən metaforun ümumi meyli semantik ardıcıllığın, hadisənin və ya elementin qrammatik reallaşma sahəsini aşağı salmaqdır: mürəkkəb cümlədən sadə cümləyə, sadə cümlədən söz birləşməsinə və hətta söz birləşməsindən sözə" [Halliday, Matthiessen, 2004: 646]. Şəxsiyyətarası metafor isə əksinə, reallaşma sahəsini yuxarı qaldırır. Məsələn, “modallığın konqruent reallaşması cümlə daxilində funksiyanı yerinə yetirən bir qrup olduğu halda, onun metaforik reallaşması modal dəyərinin aid edildiyi cümləni proyeksiya edən (*I think* ... və s.) və ya öz daxilində yerləşdirən (*it is probable* ...və s.) bir cümlədir” [Halliday, Matthiessen, 2004: 646].

Təsəvvüredilən metaforun əsas vasitəsi nominalizasiyadır ki, bunu “nominalizasiya qrammatik metafor yaratmaq üçün ən güclü resursdur” fikrindən də aydın müşahidə etmək olur. [Halliday, Matthiessen, 2004: 656]. C.Martin bu prosesi belə bir nümunə ilə göstərir: *Ford was unhappy so Trillian left* (Ford narahat idi, ona görə də Trillian getdi) və *Ford's unhappiness led to Trillian's departure* (Fordun narahatlığı Trillianın getməsinə səbəb oldu). C.Martinə görə,

metaforik variantı seçmək “mənanın əlavə qatlarını kodlaşdırmaq deməkdir, yəni bu, sadəcə qeyri-tipik ifadə vasitəsi seçmək məsələsi deyil” [Martin, 1992: 17].

Qrammatik metaforun növləri haqqında ibtidai biliklər əldə etdikdən sonra onun dillər arasında necə fərqləndiyini anlamaq üçün “rank şkalası” anlayışına müraicət etmək lazım gəlir. “Dil tipologiyası: Funksional yanaşma” adlı toplunun girişində yazılır ki, “kitabda təsvir olunan dillər eyni tipli rank şkalası ilə işləyir, lakin işi ranklar arasında necə böldüklərinə görə fərqlənirlər” [Caffarel, Martin, Matthiessen, 2004: 38]. “Funksional qrammatikaya giriş”in üçüncü nəşrində dilin arxitekturasından danışılarkən belə bir haşiyə çıxılır ki, “Yapon, türk və inuit dilləri söz rankında nisbətən daha çox qrammatik iş görür, tay, çin və vyetnam dilləri isə söz birləşməsi rankında” [Halliday, Matthiessen, 2004: 9].

Tipoloji yanaşmanı qrammatik metafora ilk dəfə sistemli şəkildə Y.Yanq tətbiq edib. O, çin və ingilis dillərini “üç dəyişən üzrə: (1) qrammatik tərkib hissələrinin sırası, (2) qrammatik spesifiklik dərəcəsi və (3) qrammatik reallaşmaların yeri” üzrə müqayisə edir [Yang, 2008: 454]. Onun əsas nəticəsi budur ki, çin dilində konqruent və metaforik ifadə arasındakı formal məsafə ingilis dilindəkindən qısadır, çünki çin dilində morfoloji göstərici yoxdur və təyin edilən həmişə təyindən sonra gəlir [Yang, 2008: 465]. Korpus əsaslı sonrakı işində Y.Yanq eyni fikri təsdiq edir. Yəni çin dilində qrammatik metaforun paylanmasının xüsusiyyətləri “dilin tipoloji xüsusiyyətləri ilə yaranır” [Yang, 2011: 25]. Biz də bu üç parametri özbək dilinə tətbiq edirik.

Özbək dilində təsəvvür edilən metaforlar. M.Hallideyin modelində iki hadisənin ardıcıllığı konqruent olaraq bağlayıcılı mürəkkəb cümlə ilə verilir. Özbək dilində bunun iki yolu var. Birincisi fars mənşəli bağlayıcılardan istifadədir: *Kuchli yomg‘ir yog‘di, shuning uchun o‘yin bekor qilindi* (Güclü yağış yağdı, buna görə də oyun ləğv edildi). Bu cümlə ingilis dilindəki It rained heavily, so the match was cancelled (Yağış güclü yağdı, ona görə də oyun ləğv edildi) cümləsi ilə eyni quruluşdadır. İkinci yol türk dillərinin öz yoludur ki, asılı hissə feili sifət və ya feili bağlama ilə qurulur, bağlayıcı mənasını qoşma verir: *Kuchli yomg‘ir yog‘gani uchun o‘yin bekor qilindi* (Güclü yağış yağdığı üçün oyun ləğv edildi).

Nəzəriyyə üçün burada çətinlik yaranır. *Yog‘gani* forması formal baxımdan ad xüsusiyyətləri daşıyır. Belə ki, -gan feili sifət şəkilçisindən sonra mənsubiyyət şəkilçisi (-i) gəlir, üstəlik onu qoşma idarə edir. İngilis dilinin gözüylə baxsaq, bu artıq nominalizasiyadır. Lakin biz bu formaya metafor kimi baxmırıq. Bu, türk dillərində asılı cümlənin ən adi, gündəlik danışıqda və uşaq nitqində ilk yaranan

formasıdır. O, öz mübtədasını adlıq halda saxlaya bilir (*men kelganim uchun*, mən gəldiyim üçün), zaman fərqini qoruyur (*yog‘gani uchun* / *yog‘ayotgani uchun*, yağdığı üçün / yağmaqda olduğu üçün) və cümlədə ayrıca iştirakçı olmur, yalnız şərait bildirir. Buradan aydın olur ki, türk dili üçün konqruentlik ölçüsü ingilis dilindəkindən fərqlidir, yəni asılı cümlənin “adşəkilli” olması hələ metafor demək deyil.

Metafor proses əşyaya çevriləndə başlayır. Bunu özbək dilində formal əlamətlərlə yoxlamaq olar. Əgər feildən düzəlmiş forma cəm şəkilçisi (-lar) və işarə əvəzliyi qəbul edirsə (*bu o‘zgarishlar* - bu dəyişikliklər), mübtədası yalnız yiyəlik halda işlənirsə və başqa bir prosesin iştirakçısı (mübtəda və ya tamamlıq) olursa, o zaman qrammatik metaforun varlığından danışmaq olar.

Hadisənin ad birləşməsinə çevrilməsi prosesini izah etmək üçün Y.Yanqın fizika mətnindən gətirdiyi nümunəni özbək dilinə köçürək: *Elektron magnit maydonida harakatlanadi* (Elektron maqnit sahəsində hərəkət edir) → *elektronning magnit maydonidagi harakati* (elektronun maqnit sahəsindəki hərəkəti). İngilis dilində bunlar The electron moves in a magnetic field (Elektron maqnit sahəsində hərəkət edir) və the movement of the electron in a magnetic field (elektronun maqnit sahəsindəki hərəkəti) şəklindədir. İngilis dilində iştirakçı və şərait nominalizasiyadan sonra əsas sözdən sonraya keçir. Çin dilində isə, Y.Yanqın göstərdiyi kimi “cümlədə və ad birləşməsində qrammatik tərkib hissələri eyni sırada düzülür” [Yang, 2008: 465]. Özbək dili bu baxımdan çin dilinə yaxındır. Belə ki, iştirakçı, şərait və proses hər iki variantda eyni sıradadır. Fərq yalnız morfologiyadadır. Daha dəqiq ifadə etsək, iştirakçıya yiyəlik halı şəkilçisi (-ning), şəraityə -dagi (yerlik hal + -gi), prosesin özünə mənsubiyyət şəkilçisi (-i) artırılır, feil düzəldən -lan şəkilçisi isə atılır (*harakatlan-* → *harakat*).

Burada daha bir xüsusiyyət görünür. Özbək dilində nominalizasiya olunmuş proses daxildə feil idarəsini saxlayır. *Talabaning kitobni tez o‘qishi* (Tələbənin kitabı tez oxuması) birləşməsində tamamlıq təsirlik haldadır (-ni), zərflik də feilə aid olaraq qalır. L.Heyvaert ingilis dilində iki növ nominallaşmanı fərqləndirir: Tom's cleaning the kitchen (Tomun mətbəxi təmizləməsi) və Tom's cleaning of the kitchen (Tomun mətbəx təmizliyi) [Heyvaert, 2003: 67]. Birincisi cümlə xüsusiyyətlərini saxlayır, ikincisi daha çox adı xatırladır. Özbək dilində bu iki qütbdən birincisi üstündür. Belə ki, nominallaşmış prosesin xarici tərəfi addır (hal, mənsubiyyət, cəm şəkilçisi qəbul edir), daxili tərəfi isə feildir (təsirlik halı idarə edir, növ və inkarı saxlayır). Təsirlik halı atılanda (*kitob o‘qish*, kitab oxuma)

birləşmə terminoloji xüsusiyyət qazanır: *kitob o‘qish madaniyati* (kitab oxuma mədəniyyəti).

Yeri gəlmişkən, M.Hallidey və K.Matthissen təsəvvür edilən metaforun “itkilərini” də qeyd edirlər. Daha dəqiq ifadə etsək, hadisələr söz birləşməsi ilə veriləndə “iştirakçı rollarının konfiqurasiya modelləri itir və ya kölgədə qalır” [Halliday, Matthiessen, 2004: 642]. İngilis dilində your absence from the meeting (iclasda olmamanız) ifadəsində zaman yoxdur, inkar isə absence sözünün leksik mənasına həll olunub. Özbək dilində eyni hadisə bir sözdə verilir: *Majlisga kelmaganligingiz rahbariyatning e’tiborini tortdi* (İclasa gəlmədiyiniz rəhbərliyin diqqətini çəkdi). *Kelmaganligingiz* sözünü parçalasaq: *kel-* (proses), *-ma-* (inkar), *-gan-* (keçmiş zaman), *-lig-* (əşyalaşdırıcı), *-ingiz* (II şəxs cəm, yəni iştirakçı). Bu, M.Hallideyin “söz birləşməsindən sözə” aşağı düşmə adlandırdığı prosesin aqqlütinativ dil tipindəki son nöqtəsidir. İngilis dilində metafor hadisəni söz birləşməsi səviyyəsinə endirir, özbək dilində isə söz səviyyəsinə qədər endirə bilir və bu zaman iştirakçının şəxsi, inkar, zaman və növ itmir. Başqa sözlə, aqqlütinativ dil tipində təsəvvür edilən metafor ingilis dilindəkindən az məna itkisi ilə baş verir: *-ish* forma zaman seçimini neytrallaşdırır (*kelishingiz*, gəlməyiniz), II şəxs mənsubiyyəti də bəzən atılır (*majlisga kelmaslik*, iclasa gəlməmək).

M.Hallidey və K.Matthissen ingilis dili üçün 13 elementar metafor tipi göstərirlər [Halliday, Matthiessen, 1999: 245–246]. Aşağıdakı cədvəldə onların əsas hissəsi üçün özbək dilindən qarşılıqlar verilir (ingilis nümunələri həmin mənbənin cədvəlindən götürülüb).

Tip	Semantik keçid	Özbək dili	Azərbaycanca	İngilis dili
1	keyfiyyət → əşya	beqaror → beqarorlik	qeyri-sabit → qeyri-sabitlik	unstable → instability
2	proses → əşya	o‘zgarmoq → o‘zgarish	dəyişmək → dəyişmə	transform → transformation
3	şərait → əşya	yuzada [chang] → yuza [changi]	səthdəki [toz] → səth [tozu]	[dust] on the surface → surface [dust]

Tip	Semantik keçid	Özbək dili	Azərbay canca	İngilis dili
4	bağlayıcı → əşya	chunki → sabab; agar → shart	çünki → səbəb; əgər → şərt	so → cause; if → condition
5	proses → keyfiyyət	yutmoq → yutuvchi	udmaq → udan	absorb → absorptive
6	şərait → keyfiyyət	yuzada → yuzaki	səthdə → səthi	on the surface → superficial
8	şərait → proses	o‘rniga → almashtirmoq	yerinə → əvəz etmək	instead of → replace
9	bağlayıcı → proses	shuning uchun → sabab bo‘lmoq, olib kelmoq	buna görə → səbəb olmaq, gətirib çıxarmaq	so → cause, lead to
10	bağlayıcı → şərait	chunki → natijasida, tufayli	çünki → nəticəsində, ucbatından	because → as a result of, because of
13	əşya → əşyanın genişlənməsi	haydovchi xavfsiz → haydovchi xavfsizligi, haydovchining xavfsizligi	sürücü təhlükəsizdir → sürücü təhlükəsizliyi, sürücünün təhlükəsizliyi	driver safety, driver's safety, safety of the driver

Cədvəldən görünür ki, Hallidayın tiplərinin əksəriyyətinin özbək dilində hazır qarşılığı var. Ayrı-ayrı cütlər hətta söz yaradıcılığı modelinə görə də üst-üstə düşür. Belə ki, ingilis *superficial* sözü latınca “səth” sözündən düzəlib, özbəkcə *yuzaki* da *yuza* (səth) sözündən. Fərq ifadə vasitəsindədir. 10-cu tipdə ingilis dili şəraiti üç sözlü birləşmə ilə verir (as a result of), özbək dili isə bir sözlə (natija-si-da). 13-cü tipdə ingilis dilinin üç variantına qarşı özbək dilində iki variant var: ikinci növ təyini söz birləşməsi (*haydovchi xavfsizligi*) və birinci növ (*haydovchining xavfsizligi*). Təyinin əsas sözdən sonra gəldiyi variant (safety of the driver) türk dilinin söz sırasına yaddır.

Özbək dilində isimləşmənin iki yolu var. Birincisi şəkilçi yoludur: -lik (*beqarorlik*), -ish (*o‘zgarish*), -(u)v (*yozuv*, yazı), -m (*bilim*, bilik), -gan + -lik

(*kelganlik*). İkincisi mürəkkəb feilin köməkçi hissəsinin atılmasıdır: *tahlil qilmoq* → *tahlil* (təhlil etmək → təhlil), *ta’sir ko‘rsatmoq* → *ta’sir* (təsir göstərmək → təsir). İkinci yolda formal məsafə çox qısadır və Y.Yanqın çin dili üçün təsvir etdiyi vəziyyətə bənzəyir. Yəni əsas leksem dəyişmir, yalnız onun başqa sinifə keçdiyini göstərən köməkçi hissə itir. Bəzi şəkilçili formalar isə leksikləşib müstəqil sözə çevrilib: *kelajak* (gələcək), *o‘tmish* (keçmiş). M.Halliday və K.Matthiessen qədim yunan dilində ad düzəldən şəkilçilərin tarixini izləyərək yazırlar ki, burada “transkateqoriyalaşma yolu ilə məna yaratmağın, aralıq mərhələlərdən keçərək, metaforlaşdırma yolu ilə məna yaratmağa çevrildiyi” görünür [Halliday, Matthiessen, 1999: 243]. Özbək dilindəki *-ish* və *-lik* şəkilçilərinin terminologiyada geniş işlənməsi (*erish*, ərimə; *bug‘lanish*, buxarlanma; *tezlik*, sürət) eyni prosesin türk dilindəki görünüşüdür.

Özbək dilində şəxsiyyətarası metaforlar. İngilis dilində ehtimal mənasının konqruent ifadəsi cümlə daxilindəki modal sözdür. M.Hallidey və K.Matthissen yazır ki, “*it probably is so* konqruent formasına *I think it is so* metaforik variantı uyğun gəlir, burada *I think* əsas cümlədir” [Halliday, Matthiessen, 2004: 614]. Modal məna bu yolla ayrıca cümləyə çevrilir, söz birləşməsi rankından cümlə rankına qalxır.

Özbək dilində ehtimal mənasının konqruent ifadəsi daha aşağı rankda, sözün içindədir: *U uyga qaytgandir* (O, yəqin ki, evə qayıdıb). Burada ehtimal -dir şəkilçisi ilə bildirilir. Modal sözlər (*ehtimol*, *balki*) isə ikinci, söz rankından bir pillə yuxarıdakı yoldur. “Funksional qrammatikaya giriş” müəllifləri bu cür fərqi ümumi şəkildə nəzərdə tuturlar: “Bir dildə söz rankında işləyən feil şəkilçiləri başqa dildə söz birləşməsi rankında işləyən köməkçi feillərə, hətta üçüncü dildə cümlə rankında işləyən modal ədatlara uyğun gələ bilər” [Halliday, Matthiessen, 2004: 9]. Bu səbəbdən özbək dilində modallıq metaforunun yolu ingilis dilindəkindən uzundur. Metaforik variantlar bunlardır:

1.*Menimcha, u uyga qaytgan* (Məncə, o evə qayıdıb). *Menimcha* sözü “mənim fikrimcə” mənasını bir sözdə verir. Proyeksiya edən cümlə burada bir sözə sıxılıb.

2.*U uyga qaytgan, deb o‘ylayman* (O evə qayıdıb deyə düşünürəm). Bu, türk tipli proyeksiyadır. Əvvəl fikir, sonra *deb* feili bağlaması və proyeksiya edən zehni cümlə işlənib.

3.*Men o‘ylaymanki, u uyga qaytgan* (Mən düşünürəm ki, o evə qayıdıb). Fars mənşəli -ki ilə qurulan bu variant sırasına görə ingilis dilinə yaxındır.

4.*Uning uyga qaytgani aniq* (Onun evə qayıtdığı dəqiqdir), *qaytgan bo‘lishi ehtimol* (qayıtmış olması ehtimaldır). Bu, obyektiv-açıq modallıqdır.

İkinci və üçüncü variantların müqayisəsi mətn quruluşu baxımından maraqlıdır. İngilis *dilində I think* cümlənin başında gəlir və danışanın qiymətləndirməsi temaya çevrilir. Türk tipli variantda tema mülahizənin özüdür, qiymətləndirmə isə cümlənin sonunda, rematik mövqedədir. Dördüncü variant daha bir fərqi göstərir. İngilis dilində *It is certain that he has returned home* (Onun evə qayıtdığı dəqiqdir) cümləsində mülahizə zaman forması olan cümlə kimi qalır. Özbək dilində isə mülahizə mütləq nominallaşır (*qaytgani*) və modal sözün mübtədasına çevrilir. Deməli, özbək dilində obyektiv modallıq metaforu təsəvvür edilən metaforla birlikdə işləyir. M.Hallideyin termini ilə desək, burada metaforlar “sindrom” təşkil edir [Halliday, Matthiessen, 1999: 244].

İngilis dilində məlumatın mənbəyi qrammatik kateqoriya deyil, onu leksik vasitələr bildirir. Məsələn, *Apparently he has gone* (Deyəsən, o gedib), *It is said that he has gone* (Onun getdiyi deyilir). Özbək dilində isə bu məna konqruent olaraq feil formasında verilir: *U Toshkentga ketibdi* (O, Daşkəndə gedibmiş). Metaforik variantlar yenə iki istiqamətdə qurulur: *Aytishlaricha, u Toshkentga ketgan* (Deyilənə görə, o Daşkəndə gedib) və *Uning Toshkentga ketgani aytilmoqda* (Onun Daşkəndə getdiyi deyilir). *Aytishlaricha* sözü (*ayt-ish-lar-i-cha*) “onların dediyinə görə” mənalı bütöv bir proyeksiya edən cümləni bir sözdə toplayır. İkinci variantda yenə nominallaşma var, yəni mülahizə (*ketgani*) məchul növdə olan feilin mübtədasıdır.

M.Taverniers şəxsiyyətarası metafora “semiozisin ikiqatlaşması” kimi baxır [Taverniers, 2004b]. Özbək dilində bu ikiqatlaşma bəzən formada açıq görünür: *Menimcha, u qaytgandir* (Məncə, o, yəqin ki, qayıdıb) cümləsində eyni ehtimal mənası həm metaforik sözlə (*menimcha*), həm konqruent şəkilçi ilə (-dir) verilir. M.Taverniersin başqa bir fikri də özbək materialına uyğun gəlir. O yazır ki, proyeksiya “qrammatik metaforu qrammatikalaşma üçün zəminə çevirən qrammatik xüsusiyyətdir” və bu yol *I think* tipli diskurs markerlərinə aparan yollardan biridir [Taverniers, 2018: 198]. *Menimcha* və *aytishlaricha* məhz bu yolu keçmiş formalardır.

Əmrin konqruent ifadəsi əmr formasıdır: *Eshikni yoping* (Qapını bağlayın). M.Hallidey və K.Matthissen yazırlar ki, “metaforik variantlar məna ilə ifadə arasında daha böyük semiotik məsafə yaradır və bu, danışan ilə dinləyən arasında daha böyük sosial məsafəni ifadə edir” [Halliday, Matthiessen, 2004: 631]. İngilis dilində bu məsafə sual cümləsi (Could you close the door? - Qapını bağlaya

bilərsinizmi?) və şərt cümləsi ilə (I'd appreciate it if you closed the door - Qapını bağlasanız, minnətdar olardım) yaradılır. Özbək dilində də bu yollar var: *Eshikni yopib qo‘ya olasizmi?* (Qapını bağlaya bilərsinizmi?), *Eshikni yopib qo‘ysangiz, yaxshi bo‘lardi* (Qapını bağlasanız, yaxşı olardı). Lakin özbək dilinin əlavə imkanı da var: şərt forması əsas cümləsiz, tək işlənə bilir: *Eshikni yopib qo‘ysangiz* (Qapını bağlasanız...). Burada əsas cümlə (*yaxshi bo‘lardi*) atılıb, xahiş isə bir feil formasında qalıb. Nəzakət dərəcəsi sözün içində də artırıla bilir: *yoping → yopib qo‘ying* (köməkçi feil *qo‘y-*) → *yoping-chi* (yumşaldan -chi ədəti). Belə çıxır ki, ingilis dilində sosial məsafə əsasən sintaqmatik uzanma (əlavə cümlələr) ilə yaradılır, özbək dilində isə bunun bir hissəsi söz rankında, şəkilçilər və köməkçi feillər hesabına baş verir.

Nəticə. Belə qənaətə gəlirik ki, M.Hallideyin qrammatik metafor nəzəriyyəsi aqqlütinativ dil tipinə tətbiq oluna bilər və onun ingilis dili üçün ayırd etdiyi elementar tiplərin əksəriyyətinin özbək dilində qarşılığı var. Lakin nəzəriyyəni türk dillərinə olduğu kimi köçürmək olmaz. İlk növbədə konqruentlik meyarı dəqiqləşdirilməlidir. Özbək dili materialları əsasında apardığımız tədqiqatda məlum oldu ki, bu dildə konqruentlik meyarı ingilis dilindəkindən fərqlənir. Belə ki, feili sifət və feili bağlama ilə qurulan asılı hissə özbək dilində hələ metafor sayılmır. Y.Yanqın üç parametri əsasında müəyyən edilmişdir ki, özbək dilində metaforik ifadə konqruent variantla eyni söz sırasını saxlayır, fərq isə şəkilçilərlə bildirilir. Təsəvvür edilən metafor hadisəni söz rankına qədər endirir və inkar, zaman, şəxs mənalarını itirmir. Şəxsiyyətarası metaforda isə modallıq və nəzakət mənaları həm cümlə, həm söz rankında reallaşır. Beləliklə, aqqlütinasiya metaforun formal məsafəsini və məna itkisini azaldır. Bu nəticələr nəzəriyyənin digər türk dillərində sınanması üçün əsas yaradır.

ƏDƏBIYYAT

5.Caffarel A., Martin J.R., Matthiessen C.M.I.M. (eds.) Language Typology: A Functional Perspective. – Amsterdam; Philadelphia: John Benjamins, 2004.

6.Çakır H., Cengiz Ö. Grammatical Metaphor in Turkish Classrooms // International Journal of Sciences: Basic and Applied Research (IJSBAR). – 2016. – Vol. 26, No 2. – P. 118–135.

7.Halliday M.A.K., Matthiessen C.M.I.M. Construing Experience through Meaning: A Language-based Approach to Cognition. – London; New York: Continuum, 1999.

8.Halliday M.A.K., Matthiessen C.M.I.M. An Introduction to Functional Grammar. – 3rd ed. – London: Arnold, 2004.

9.Heyvaert L. Nominalization as grammatical metaphor: On the need for a radically systemic and metafunctional approach // Simon-Vandenbergen A.-M., Taverniers M., Ravelli L. (eds.) Grammatical Metaphor: Views from Systemic Functional Linguistics. – Amsterdam; Philadelphia: John Benjamins, 2003. – P. 65–100.

10.Martin J.R. English Text: System and Structure. – Amsterdam; Philadelphia: John Benjamins, 1992.

11.Taverniers M. Grammatical metaphors in English // Moderna Språk. – 2004a. – Vol. 98, No 1. – P. 17–26.

12.Taverniers M. Interpersonal grammatical metaphor as double scoping and double grounding. – Ghent University, 2004b.

13.Taverniers M. Grammatical metaphor and lexical metaphor: Different perspectives on semantic variation // Neophilologus. – 2006. – Vol. 90. – P. 321–332.

14.Taverniers M. Grammatical metaphor and grammaticalization: The case of metaphors of modality // Functions of Language. – 2018. – Vol. 25, No 1. – P. 164–204.

15.Webster J.J. An Introduction to Continuum Companion to Systemic Functional Linguistics // Halliday M.A.K., Webster J.J. (eds.) Continuum Companion to Systemic Functional Linguistics. – London; New York: Continuum, 2009. – P. 1–11.

16.Yang Y. Typological interpretation of differences between Chinese and English in grammatical metaphor // Language Sciences. – 2008. – Vol. 30. – P. 450–478.

17.Yang Y. Grammatical metaphor in Chinese: A corpus based study // Functions of Language. – 2011. – Vol. 18, No 1. – P. 1–28.

MUNDARIJA

KIRISH SO‘ZI		
Sirojiddinov Sh.S.	O‘zbek tilining xalqaro nufuzini oshirish zarurati	**6**
I. O‘ZBEK TILINING JAHON TILLARI TIZIMIDAGI O‘RNI VA RIVOJLANISH TENDENSIYALARI		
Xolmanova Z.	O‘zbek tilining jahon tillari tizimidagi mavqeyini belgilashda lingvodidaktikaning o‘rni	**9**
Abdushukurov B.	Alisher Navoiy asarlaridagi qadimgi turkiy fe’llar semantikasi	**16**
Xudoyberdiyev J.	Mahmud Koshg‘ariy – singarmonizmning birinchi nazariyotchisi va ovrupolik olimlarning singarmonizm haqidagi xato qarashlari	**30**
Abdurahmanova M.	Alisher Navoiy merosi psixolingvistik talqinda	**45**
Xolmurodova M.	“Nasoyim ul-muhabbat” asaridagi tabobatga doir ayrim arabcha so‘zlar	**51**
O‘razova I.	Ot frazemalarning grammatik funksiyasi (Alisher Navoiy “Xamsa”sidagi frazemalar misolida)	**56**
Maxkamova D.	O‘zbek tili axborot-kommunikatsiya texnologiyalari	**60**

	terminologiyasi taraqqiyoti va tadqiqi	
Oripova M.	Sinestezik metaforalarda sezgilar interperatsiyasi	**66**
Muratova N.	Tilak va tabrik nutqiy aktlarida kommunikativ taktikaning tanlanish xususiyatlari	**72**
Abdullayeva G.	Folklor diskursida o‘xshatishlarning semantik-struktur va kognitiv tahlili	**78**
Xayrullayeva R.	Kichraytirish-erkalash shakllarining pragmatik ifodalanishi	**86**
Jumaniyozova Ch.	Sifat so‘z turkumida obyektiv va subyektiv belgilarning ifodalanishi	**90**
Abduvaliyeva K.	“Shajarayi turk” asaridagi ba’zi urug‘ nomlarining etnotoponim sifatidagi tahlili	**95**
Mullaboyeva Sh.	O‘zbek tilida o‘xshatishlar asosida estetik bahoning ifodalanishi	**107**
Mamadoliyeva M.	Graduallik kategoriyasining lingvistik tabiati va uning turdosh hodisalar bilan munosabati (Xayriddin Sultonov va Iqbol Mirzo asarlari misolida)	**115**
Mamarasulova M.	O‘zbek tili fonosemantik tahlilining fonologik asoslari	**130**
Siddiqova N.	O‘zbek xalq maqollaridagi eskirgan leksika: tarkibi,	**132**

	variantlanishi va lingvopoetik vazifalari	
Yusupova A.	Konseptlarning metaforik ifodalanishi va tahlil shakllari	**144**
O‘ralova N.	O‘zbek tilshunosligida parsellyatsiya hodisasi, uning sintaktik tavsifi va ega-kesim munosabatidagi o‘rni	**150**
Maxmudova M.	Kelishik kategoriyasining o‘rganilish tarixiga doir ayrim mulohazalar	**158**
Nurmatova S.	O‘zbek tilida rang ifodalovchi birliklarning lingvokognitiv strukturasi va konseptualizatsiya masalalari	**168**
Keldiyorova Z.	O‘zbek tilidagi shikoyat matnlarida nutqiy aktlarning ifodalanishi	**174**
Aliqulova Z.	Toponimlarning axborotni saqlash va uzatish xususiyatlari	**178**
Jurayeva Sh.	Hurmat kategoriyasining lisoniy birliklar bilan ifodalanishi	**183**
Karimova U.	Kultegin bitiktoshidagi xarakter-xususiyat bildiruvchi sifatlar tahlili	**188**
II. O‘ZBEK TILINI XALQARO MAYDONDA TARG‘IB QILISH STRATEGIYALARI		
Shamsiyeva M.	Peyzaj matnlari orqali turizmni rivojlantirish istiqbollari	**194**

Jo‘rayeva M.	Matnni tushunishda asar sarlavhasining ahamiyati	**201**
III. GLOBALLASHUV SHAROITIDA MILLIY TIL VA MADANIYATNI SAQLASH MASALALARI		
Ashirboyev S.	Adstrat sharoitidagi turkiy shevalarning o‘zaro ta’siri masalasi	**205**
Farhad Rahimi	Yakşı/ ĥoş, yap/ lap, ķop/ köp/ ĥob, appaķ/ pāk kelimeleri üzerine On the words yakşı/ ĥoş, yap/ lap, ķop/ köp/ ĥob, appaķ/ pāk	**210**
Xakimova M.	O‘zbek tilidagi metaforik konseptuallashtirishning milliy xususiyatlari	**232**
Abbozov O.	So‘x toponimlarining lingvomadaniy xususiyatlari	**238**
Komilova G.	O‘zbek tilida qadriyatlar tipologiyasining lingvistik verbalizatsiyasi	**245**
Xomidova M.	Zamonaviy o‘zbek badiiy matnlarida ertak elementlarining intertekstual xususiyatlari	**253**
Həsənzadə Səmra	Qrammatik metaforun türk dillərində reallaşması (özbək dilinin materiallari əsasinda)	**261**
Davronova Z.	Antroponimik freymlarda registrdan og‘ish fenomini (Cho‘lponning “Kecha va kunduz” romani misolida)	**272**

Tursinbayeva Sh.	Badiiy matnda onomastik birliklarning lingvomadaniy imkoniyatlari	**276**
Bekmuradova I.	O‘zbek tilidagi ijobiy fe’l-atvor leksemalarining semantik tasnifi	**283**
Imomova I.	Fitratning dramatik asarlarida maqollarning qo‘llanilishi va funksional-semantik xususiyatlari	**291**
Turgunboeva D.	Globallashuv sharoitida o‘zbek va ingliz lingvomadaniyatida miqdoriy me’yor	**297**
Amrullayeva M.	O‘zbek tilida inson xarakterini ifodalovchi frazemalarning semantik mikromaydonlari	**305**
Abdug‘afurova A.	Lingvomadaniy kodlarning poetik faollashuvi: Faxriyor va Ulug‘bek Hamdam she’riyati qiyosida	**312**
Muzaffarova Z.	Badiiy matnda qo‘llangan metaftonimik birliklarning kognitiv xususiyatlari	**322**
Jumayeva M.	Son komponentli lug‘aviy birliklarning lingvokulturologik tahlili	**327**
Xolmo‘minova H.	Frazemalarning lingvomadaniy tahlili	**333**
IV. O‘ZBEK TILINI O‘QITISHNING ZAMONAVIY METODLARI VA XORIJIY TAJRIBA		

Xusanova N.	Raqamli ta’lim muhitida o‘qish savodxonligi transformatsiyasi vositasida boshlang‘ich o‘quvchilarning kreativligini shakllantirish	**337**
Mamirova X.	Bolalarda ko‘p ma’noli so‘zlarni o‘zlashtirishning psixolingvistik mexanizmlari va til ta’limiga ta’siri	**344**
Arolova N.	Maktabgacha yoshdagi o‘zbek bolalari nutqida sintaktik tejamkorlik	**351**
Mirnosirova D.	Nutqiy ijod haqidagi nazariy qarashlar talqini	**356**
Nurboboyeva R.	Erta yoshdagi bolalar ta’limida adabiyotning tutgan o‘rni	**363**
Keldiboyeva M.	O‘zbek tili omonimlarini o‘zlashtirishda kontekst va assotsiatsiyaning psixolingvistik roli	**369**
V. TARJIMA VA LINGVOMADANIY ALOQALAR: XALQARO HAMKORLIKNING MUHIM OMILI SIFATIDA		
Mustafa Said Arslan	Türkiye türkçesi ve özbek türkçesi arasindaki yakinliğin öğretimdeki yansimalari: özbek türkçesi öğretiminde karşilaşilan sorunlar ve öneriler	**378**
Kalanova D.	O‘.Hoshimov “Dunyoning ishlari” asarining koreyscha tarjimasida milliy-madaniy realiyalarning berilishi	**389**

Muhammadiyeva D.	Ko‘p tilli parallel korpusning tarjima birliklarini qiyosiy o‘rganishdagi imkoniyatlari	**400**
Abbasova Ş.	Özbek Yazı Dili ve Azerbaycan Türkçesi'nin Ağızlarında Akrabalık Terimleri	**411**
Qarshiyev K.	Badiiy tarjimaning adabiy-estetik tafakkur evolyutsiyasiga ta’siri (Jamol Kamolning tarjimonlik faoliyati misolida)	**418**
Rahimova Z.	Parallel korpuslarning tarjimashunoslik va qiyosiy tilshunoslikdagi ilmiy ahamiyati	**428**
Bozorova S.	Rus tilidagi ayrim gippologik birliklar tadqiqiga doir	**433**
Axmedova N.	O‘zbek va ingliz tillarida ruhiy holat birliklarining semantik farqlari va kontekstual tarjimasi	**442**
Davlatova R.	Sun’iy intellekt asrida inson nutqi, tilni idrok etish va psixolingvistik jarayonlar	**448**
Turdiyeva R.	Ingliz, qoraqalpoq va o‘zbek tillaridagi maqollarda zoonimlarning lingvokognitiv tahlili (“bo‘ri” misolida)	**462**
Ataniyazova S.	O‘zbek va ingliz tillarida mayl, zamon va modallikning muloqot xulqidagi funksional-uslubiy imkoniyatlari	**466**
Sayfiyeva K.	O‘zbek va ingliz fitonim komponentli maqollarida inson	**472**

	konseptining kognitiv metaforik modellari	
Tillayeva O.	O‘zbek va turk maqollarida erkak konseptining semantik maydoni	**485**
Musurmankova Sh., **Abdullayeva D.**	“Ikki eshik orasi” romanidagi murojaat birliklarining lingvomadaniy xususiyatlari va tarjima muammolari	**495**
Abdullayeva M.	Ingliz va o‘zbek maqollarida nutqiy antonimiyaning lingvokognitiv xususiyatlari	**502**
VI. AXBOROT TEXNOLOGIYALARI VA RAQAMLI MUHITDA O‘ZBEK TILINING RIVOJI		
Abjalova M.	O‘zbek tili multikorpusida aksentologik korpus va uning ahamiyati	**513**
Elova D.	O‘zbek normativ-huquqiy matnlarini lingvo-mantiqiy annotatsiyalash mezonlari	**524**
Kasimova Z.	O‘zbek tili iboralar korpusini yaratishning lingvistik va kompyuter asoslari	**534**
Nurullayeva O.	Barqaror birikmalar resurslari va parallel korpus uchun baza tuzish mezonlari	**542**
Musulmonova K.	Lingvistik ekspertologiyada matn identifikatsiyasi bo’yicha ekspert xulosalarini shakllantirishning nazariy va amaliy asoslari	**550**

Umarova Sh.	Kollokatsiyalarni korpus asosida aniqlashning nazariy va metodologik asoslari	**556**
Akramdjanova M.	Parallel korpusning madaniyatlararo kommunikatsiyadagi o‘rni	**564**
Buronova R.	Raqamli muhitda o‘zbek tilidagi neologizmlarning shakllanishi	**570**
Shodmonaliyeva Y.	Sentiment tahlilda tasdiq-inkor emojlarining diskursiv va pragmatik funksiyalari	**576**
Rayimjonova M.	Rauf Parfi she’riyatining leksik-statistik xususiyatlari	**591**
VII. XALQARO TA’LIM DASTURLARI VA O‘ZBEK TILI: IMKONIYAT VA ISTIQBOLLAR		
Mirzəli Məleykə	Azərbaycanda özbək dilinin tədrisi: təcrübə və perspektivlər (bakı slavyan universitetinin timsalında)	**595**
Iskandarova G.	O‘zbek tilini ikkinchi til sifatida o‘rganishda so‘z ma’nolarini o‘zlashtirish	**603**
VIII. O‘ZBEK TILI VA DIPLOMATIYA: XALQARO MUNOSABATLARDA TILNING O‘RNI		
Темирова Б., **Темирова М.**	Кыргыз, өзбек тилдери жана алардын адабий-маданий байланыштардагы ролу	**610**

Nazarov Q.	O‘zbek diplomatik diskursida metaforalarning kommunikativ-pragmatik xususiyatlari	**620**
IX. ILMIY TADQIQOTLAR VA LINGVISTIKADA XALQARO HAMKORLIK MASALALARI		
Berdak Yusuf	O‘zbek tilining shakllanish jarayoni va eski o‘zbek tili terminlari	**626**
Qurbonova M.	Xarizmatik nutq haqidagi nazariy qarashlar talqini	**632**
Umurzoqova M.	Erkin A’zam asarlarida lisoniy shaxs tiplari	**640**
Mirzaali Malika	O‘zbek tılının mavsumıy marosımlar leksıkasıda turkıy areal mavqeyı	**646**
Məmmədova A.	Xarəzm Türkcəsində Və Müasir Özbək Dilində Qohumluq Terminlərində Cins Kateqoriyasinin İfadəsi	**661**
Tuxtasinova M.	L.Z.Budagov lug‘atidagi umumturkiy leksik fond: “tur.” pometali leksemalarning tarixiy-qiyosiy tahlili	**670**
Abdullayeva S.	So‘z yasalishını qıyosıy-tıpologık tadqıq etısh metodologıyası va tahlıl mezonları	**681**
Xasanova G.	Kinesikaning lingvistik tadqiqi: shakllanish tarixi va kommunikativ funksiyalari	**688**

Rajabov N.	O‘zbek tilida ng fonemasining talaffuzi, imlosi va tarixiy taraqqiyoti	**695**
Mirzayeva G.	O‘zbek tilida tovush o‘zgarishlarining neyrolingvistik asoslari	**699**
Arislanova M.	She’riy matnning konseptual tizimi va lingvokognitiv xususiyatlari (Erkin Vohidov ijodi misolida)	**706**
Muhammadiyeva M.	“Shum Bola” qissasidagi ba’zi polisemantik leksemalar tahlili	**717**
Abdullayev G‘.	Fitrat she’riyatidagi turkiy so‘zlarning emotsional-ekspressiv xususiyatlari	**722**
Tursunova S.	Ironiyada implikatura fenomeni va yashirin ma’no mexanizmlari	**726**
Turobova N.	Badiiy diskursda morfologik vositalarning pragmatik xususiyatlari	**737**
Utegenova O‘.	O‘zbek tilida tasviriy ifodalarning badiiy matnda qo‘llanilishi	**744**
Komilova G.	Tarixiy-badiiy matnlar korpuslarini yaratish zarurati va ularni semantik modellashtirish masalalari	**749**
Haydaraliyeva Sh., Mo‘minova M.	O‘zbek tili leksikasining taraqqiyot tamoyillari va semema tushunchasi	**759**

Axmedova M.	Diskurs tushunchasining lingvistik talqini: nazariy yondashuv va ilmiy qarashlar	**768**
Komilova Sh.	Lingvokultrologiyada evfemizm va milliy mentalitet: ayollar nutqi misolida nazariy talqinlar	**774**
Suyunova D.	“Boburnoma” dagi leksik qatlamlarning “Boburiynoma”da badiiy qayta faollashuvi: leksik-semantik va funksional-uslubiy tahlil	**780**
Maqsudaliyeva Y.	Lingvistik ekspertiza va lingvokriminalistik tahlil: nazariya va amaliyot	**786**
Abdurasulova D.	O‘zbek qizlari nutqidagi neonim va slenglarning pragmalingvistik tadqiqi	**792**
Majidova M.	Tibbiy soha rahbarlari kinesik nutqining lingvosomatik tadqiqi	**797**
Abdullayeva I.	Gender qadriyatlarning aksiolingvistik tahlili	**802**
X. O‘ZBEK TILINING OMMAVIY AXBOROT VOSITALARI VA MEDIA MAKONIDAGI O‘RNI		
Saydaliyeva M.	Kinodiskurs multimediali muloqot tizimi sifatida	**809**
Otaxonova S.	Mediamatnlarda antroponimlarning pragmatik imkoniyatlari	**813**